# Ağstafa və Tovuz rayonlarında yerləşən parklarda aparılan fitosanitar müşahidələr

Ağstafa və Tovuz rayonlarının ərazisində yerləşən parklarda həyata keçirilən monitorinqlər nəticəsində dekorativ bitkilərdə karantin tətbiq edilən yastıcalara, müxtəlif yaş mərhələlərində olan mənənələrə, yarpaqyeyən sovkalara, yarpaq bitlərinə, bağacıqlara, eyni zamanda, qızılgül bitkisinin və cökə ağacının yarpaqlarında göbələk xəstəliyinə (qara ləkə, unlu şeh) zəif sirayətlənmə aşkar olunub.

Bununla bağlı olaraq müvafiq qurumlar məlumatlandırılmış, aparılan mübarizə tədbirləri çərçivəsində mexaniki təmizləmə işləri həyata keçirilmiş və digər zəruri tədbirlər görülmüşdür.